

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 120 (23.031)

30 iyun 2018-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 29 iyun tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin bir qrup zabitinə ali hərbi və ali xüsusi rütbələr verilmişdir. Sərəncama əsasən Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri

**general-mayor Fazil Nəriman oğlu Ələkbərova**

general-leytenant ali hərbi rütbəsi verilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 29 iyun tarixli Sərəncamı ilə Azərbaycan polisinin yaranmasının 100 illik yubileyi münasibəti ilə və Azərbaycan Respublikasında ictimai təhlükəsizliyin və asayişin təmin edilməsində, cinayətkarlığa qarşı mübarizədə xüsusi xidmətlərinə, qarşılarında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşları təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşı da vardır.

**Novruzov Səbuhi Məhərrəm oğlu – polis general-mayoru**

“Vətən uğrunda” medalı ilə təltif edilmişdir.

## V.Z.Novruzovun Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin rəisi təyin edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Vəli Zihralı oğlu Novruzov Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin rəisi təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 29 iyun 2018-ci il*

## Babək rayonunun Şəkərabad kəndində içməli su və kanalizasiya şəbəkəsi istifadəyə verilib





Muxtar respublikanın yaşayış məntəqələrində yeni içməli su və kanalizasiya sistemlərinin qurulması, əhalinin ekoloji cəhətdən təmiz və dayanıqlı içməli su ilə təminatı diqqətdə saxlanılır. Bu sahədə görülən işlərin davamı olaraq Babək rayonunun Şəkərabad kəndində də içməli su və kanalizasiya şəbəkəsi qurulmuşdur.

İyunun 29-da Şəkərabad kəndində içməli su və kanalizasiya şəbəkəsi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin sədri Əsgər Əsgərov məlumat vermişdir ki, Şəkərabad kəndində içməli su və kanalizasiya şəbəkəsinin tikintisi “Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı layihə-3” üzrə həyata keçirilib. Kənddə müxtəlif diametrli borularla 16,4 kilometr içməli su xətti çəkilmiş, 576 evə su verilərək sayğac quraşdırılmış, sakinlər fasiləsiz və keyfiyyətli içməli su ilə təmin olunmuşlar. Su şəbəkəsinin üzərində 3 yanğın hidrantı və 3 suboşaldıcı qoyulmuşdur. Su Babək qəsəbəsinə gələn ana xətdən götürülərək natrium hipoxloridlə dezinfeksiya olunur və daxili supaylayıcı şəbəkəyə verilir. Şəkərabad kəndində müxtəlif diametrli borularla 15,1 kilometr kanalizasiya xətti də çəkilmiş, bütün mənzillər şəbəkəyə qoşulmuşdur. Aparılan tikinti işləri Şəkərabad kəndini, həmçinin hava limanını, yaxınlıqdakı hərbi hissəni və müəssisələri də əhatə edir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Şəkərabad kəndində içməli su və kanalizasiya sistemlərinin istifadəyə verilməsi münasibətilə sakinləri təbrik etmiş, bu işdə əməyi olanlara təşəkkürünü bildirərək demişdir: Su və kanalizasiya sistemlərinin qurulması Şəkərabad kəndinin statusunu artırmış, onu şəhərtipli qəsəbəyə çevirmişdir. Şəkərabad kəndi Babək rayonunun ərazisi olduğu üçün Naxçıvan şəhərinin su və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinə daxil edilməmişdi. Lakin Naxçıvan şəhərində su və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi uğurla başa çatdıqdan sonra əldə olunan qənaət hesabına Şəkərabad kəndinin içməli su və kanalizasiya sistemlərinin qurulması layihəsi də təklif olundu. Layihə ölkəmizin aid qurumları və Asiya İnkişaf Bankı tərəfindən qəbul olunduqdan sonra bu ilin əvvəlindən tikinti işlərinə başlandı və uğurla başa çatdırıldı.

Ali Məclisin Sədri demişdir: Su və kanalizasiya sistemləri təmizlik və sağlamlığın deməkdir. Bu gün Şəkərabad kəndində içməli su və kanalizasiya sistemlərinin istifadəyə verilməsi ilə yaxınlıqdakı hərbi hissə və Naxçıvan Beynəlxalq Hava Limanı da daxil olmaqla 5 minə yaxın insan təmiz içməli su ilə təmin olunur, gigiyenik qaydalar qorunur. Bütün bunlar isə Şəkərabad kəndində insanların rahat yaşayışına və sağlamlıqlarının qorunmasına hesablanmış tədbirlərdir. Bu işlər o ölkədə həyata keçirilir ki, həmin ölkədə sabitlik, inkişaf və dövlət-xalq birliyi vardır. Ölkəmizdə həyata keçirilən düzgün siyasi xətt, mövcud sabitlik və iqtisadi inkişaf yaşayış məntəqələrində bu layihələrin uğurla həyata keçirilməsinə imkan verir.

Ali Məclisin Sədri yaradılan şəraitdən səmərəli istifadə olunacağına əminliyini bildirmiş, bir daha sakinləri təbrik etmişdir.

Şəkərabad kənd sakini, ziyalı Sədaqət Mahmudov çıxış edərək demişdir: Ümummilli liderimiz Heydər Əliyevin dövlətçilik ənənələrinin yaşadıldığı müstəqil Azərbaycanın bütün bölgələri kimi, Naxçıvan Muxtar Respublikasında da geniş quruculuq işləri aparılır. Təhsil, səhiyyə, mədəniyyət, iqtisadiyyat və digər sahələr inkişaf etdirilir. Naxçıvanın tarixi özünə qaytarılır, abidələri bərpa olunur. Ulu öndərimizin ***“Təhsil millətin gələciyidir”*** kəlamı Naxçıvanda uğurla reallaşdırılır. Fəxr edirik ki, yaşayış məntəqələrindəki ən hündür və yaraşıqlı binalar məktəb binalarıdır. Bütün bu işlər Şəkərabad kəndini də əhatə edib, müasir məktəb binası, kənd mərkəzi və xidmət sahələri istifadəyə verilib, kəndin girəcəyində Dövlət bayrağımız ucaldılıb, yeni meyvə bağı salınıb. Dayanıqlı elektrik, qaz və rabitə sistemi qurulub. Bu gün isə kənddə içməli su və kanalizasiya sistemi istifadəyə verilir. Bütün kənd sakinləri adından göstərilən qayğıya görə minnətdarlıq edir, qurulanları qoruyacağımıza söz veririk. Çünki yolumuz ölkə Prezidenti tərəfindən uğurla davam etdirilən Heydər Əliyev yoludur. Biz bu yola sadiqik.

Ali Məclisin Sədri Şəkərabad kəndinin içməli su və kanalizasiya şəbəkəsinin istifadəyə verilməsini bildirən qurğunu işə salmışdır.

Sonra Ali Məclisin Sədri sakinlərlə söhbəti davam etdirərək demişdir ki, bu il Şəkərabadda kənddaxili avtomobil yolu da yenidən qurulacaq, asfalt örtük salınacaqdır. Sakinlər də aparılan abadlıq, quruculuq işlərində yaxından iştirak etməli, tikilənləri, qurulanları qorumalı, yaşıllıqların artırılmasına və torpaqların əkilməsinə diqqət yetirməlidirlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Dövlət Universiteti ilə Ukrayna Dövlət Dəmiryol Universiteti arasında müqavilə imzalanıb

***Ukraynanın Xarkov şəhərindəki Ukrayna Dövlət Dəmiryol Universitetinin qəbul komissiyasının üzvü Maksim Kuçenka və universitetin Beynəlxalq münasibətlər şöbəsinin aparıcı mütəxəssisi Mikayıl Qarayev Naxçıvan Dövlət Universitetində olublar.***

İyunun 29-da Naxçıvan Dövlət Universitetində ikitərəfli görüş keçirilib. Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov ali təhsil ocağının zəngin maddi-texniki bazası, tərəfdaş olduğu ölkələrlə apardığı tələbə-müəllim mübadiləsi haqqında məlumat verib. Universitetin beynəlxalq əlaqələrindən danışan rektor vurğulayıb ki, ali təhsil ocağı hazırda ERASMUS proqramları çərçivəsində bir çox yerli və Avropa universitetləri ilə əməkdaşlıq edir. Qeyd edilib ki, tələbə mobilliyinin inkişafı nəticəsində universitetin bakalavr və doktorantları öz təhsillərini



Polşa, Rumıniya, İspaniya, İtaliya, Çexiya və digər ölkələrin ali məktəblərində davam etdirirlər.

Ukrayna Dövlət Dəmiryol Universitetinin qəbul komissiyasının üzvü Maksim Kuçenka təmsil etdiyi universitet haqqında ətraflı məlumat verib.

Sonra hər iki universitet arasında qarşılıqlı əməkdaşlıq müqaviləsi imzalanıb.

Müqavilədə tələbə-müəllim mübadiləsi, təhsil, təhsil-texnoloji və istehsalat təcrübələrinin, birgə videokonfransların, ikitərəfli beynəlxalq proqram çərçivəsində təhsil və tədqiqat layihələrinin birlikdə işlənməsi, mədəni və idman tədbirlərinin keçirilməsi öz əksini tapıb. Elmi məqalələrin, monoqrafiyaların hazırlanması, universitetlərarası elmi məsləhətlər keçirilməsi, dərsliklərin hazırlanması üçün müəllimlərdən ibarət yaradıcılıq kollektivlərinin təşkili, tədris-tədris proqramlarının hazırlanması, hər iki universitetin keçirdiyi tədbirlərə qarşılıqlı dəvət də müqavilənin şərtlərinə daxildir.

***Naxçıvan Dövlət Universitetinin mətbuat şöbəsi***

*2 iyul Azərbaycan Polisi Günüdür*

## Muxtar respublikada polisin fəaliyyəti üçün hərtərəfli şərait yaradılıb



*Ümummilli liderimiz Heydər Əliyevin 1998-ci il 24 may tarixli fərmanı ilə Azərbaycan Xalq Cümhuriyyəti Daxili İşlər Nazirliyinin tərkibində ilk polis orqanlarının təsis edildiyi gün – 2 iyul “Azərbaycan Polisi Günü” elan olunmuşdur.*

Azərbaycanda daxili işlər orqanlarının inkişafı ulu öndər Heydər Əliyevin xidmətləri nəticəsində mümkün olmuşdur. Ümummilli liderimiz 1969-cu ildə Azərbaycana rəhbər seçiləndən sonra daxili işlər orqanlarına da dövlət qayğısı gücləndirilmiş, Vətəninə və xalqına sədaqətli kadrların irəli çəkilməsinə, əməkdaşların vətənpərvərlik, milli dəyərlər əsasında təlim-tərbiyəsinə, peşəkarlığının yüksəldilməsinə xüsusi diqqət yetirilmişdir. Bu dövrdən etibarən şəxsi heyətin milli dövlətçilik ideologiyası əsasında formalaşdırılmasına başlanılmışdır. Ölkəmiz müstəqillik qazandıqdan və ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə ali hakimiyyətə qayıdışından sonra isə hüquq-mühafizə orqanlarının yeni inkişaf mərhələsinin əsası qoyulmuşdur. Həyata keçirilən kadr islahatları peşəkarlığın artırılmasına, xidmətin səmərəli təşkilinə zəmin yaratmışdır. Qanunların aliliyinin təmin olunması, dövlətçilik prinsiplərinin ön plana çəkilməsi ölkədə cinayətkarlıqla mübarizənin möhkəm təməlini qoymuş, vətəndaşların dinc, rahat yaşamaları üçün lazımi şərait yaradılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə bu gün ölkəmizdə sabitliyin və asayişin qorunması istiqamətində ardıcıl tədbirlər görülür. Vətəndaşların məruz qala biləcəyi hüquqazidd əməllərə qarşı təxirəsalınmaz operativ tədbirlərin həyata keçirilməsi, eləcə də ictimaiyyətlə əlaqələrin daha effektli təşkili məqsədilə “102” və “Təhlükəsiz şəhər” xidmətləri yaradılmışdır. Bütün bunlar cinayətkarlığa qarşı mübarizədə daxili işlər orqanlarının əməkdaşlarına əlavə stimul vermişdir. Artıq ölkəmizin möhkəm təməllər üzərində formalaşmış ictimai-siyasi sabitlik şəraitində inkişafında, dövlətçiliyin cinayətkar qəsdlərdən qorunmasında, asayişin mühafizəsində, Konstitusiya ilə təsbit olunmuş insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı təminatında daxili işlər orqanlarının da mühüm xidmətləri vardır.

Muxtar respublikamızda da polis orqanları diqqət və qayğı ilə əhatə olunmuşdur. Son illər Naxçıvan Muxtar Respublikası daxili işlər orqanlarının maddi-texniki bazası ən müasir səviyyəyə çatdırılmış, fəaliyyətinin günün tələbləri səviyyəsində təşkili təmin edilmişdir. Ötən müddətdə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin inzibati binası da daxil olmaqla, bütün ərazi polis orqanlarının inzibati binaları yenidən qurulmuş, xidməti avtomobillər yeniləri ilə əvəz edilmiş, müasir informasiya-kommunikasiya texnologiyaları ilə təminat polisin işini daha da asanlaşdırmışdır.

Bu gün Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi, onun ayrı-ayrı strukturları üzərinə düşən vəzifələri məsuliyyətlə yerinə yetirməklə cinayətkarlığın bütün forma və təzahürlərinə qarşı mübarizədə prinsipial mövqe tutur, vətəndaşların azad və təhlükəsiz yaşamaq kimi fundamental hüququnun təmin olunması sahəsində zəruri tədbirləri həyata keçirirlər. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman, sərəncam və tapşırıqları, qarşıya qoyduğu vəzifələr rəhbər tutularaq vətəndaşların və muxtar respublikanın qanuni mənafelərinin cinayətkar qəsdlərdən qorunması sahəsində tədbirlər davam etdirilir, daxili işlər orqanları üzərlərinə düşən çətin və məsuliyyətli missiyanı əzmkarlıqla yerinə yetirirlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 5 mart tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Sıravi və Kiçik Rəis Heyəti hazırlayan Məktəbinin bazasında Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbinin yaradılması kadr hazırlığı işində mühüm əhəmiyyətə malik olmuşdur. Hazırda polis məktəbi üçün yeni binanın tikintisi aparılır.

Bu gün muxtar respublikanın daxili işlər orqanları qarşıya qoyulan məqsədlərə nail olmaq üçün yeni iş metodları tətbiq edir, hüquqazidd əməllərin qarşısının alınmasında və ictimai təhlükəsizliyin təmin edilməsində vətəndaş cəmiyyəti ilə əlaqələri möhkəmləndirir. Əhalinin müxtəlif təbəqələri və kütləvi informasiya vasitələri ilə əlaqələrin genişləndirilməsi istiqamətində zəruri tədbirlər həyata keçirilir. Artıq polis insan hüquqlarının əsas təminatçısına çevrilmiş, milli dəyərlərə hörmət və dövlətçilik ənənələrinə sədaqəti fəaliyyətinin əsas istiqaməti kimi qəbul etmişdir. Hazırda muxtar respublikada cinayətkarlıqla mübarizə, ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində qanunvericiliklə müəyyən edilmiş vəzifələr layiqincə yerinə yetirilir. Naxçıvan Muxtar Respublikasının polis orqanları cinayətlərin, inzibati xətaların və digər hüquqpozmaların qarşısının alınması istiqamətində fəaliyyəti gücləndirir. Ən müasir texniki avadanlıqlardan, informasiya texnologiyalarının son nailiyyətlərindən istifadə cinayətkarlığa qarşı mübarizədə, ictimai asayişin və təhlükəsizliyin təmin olunmasında operativliyi artırmışdır. Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin rəsmi internet səhifəsinin, elektron poçtunun və səyyar xidmətinin fəaliyyət göstərməsi isə işin səmərəli təşkilinə, eləcə də vətəndaşların rahatlığının təmin olunmasına və müraciətlərinin vaxtlı-vaxtında həllinə şərait yaratmışdır.

Öz işini qanunçuluq, humanistlik, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi prinsipləri əsasında quran polis orqanları şəxsi heyətin peşə hazırlığı, mənəvi dəyərlərə ciddi riayət ruhunda tərbiyə olunması işini də diqqət mərkəzində saxlayır. Bununla yanaşı, muxtar respublikanın şəhər, rayon və kəndlərində, eləcə də ümumtəhsil məktəblərində mütəmadi olaraq görüşlər keçirilir, əhali arasında maarifləndirici söhbətlər aparılır.

Ulu öndər Heydər Əliyev polis əməkdaşları qarşısında mühüm vəzifələr müəyyənləşdirərək demişdir: ***“Polis peşəsi ağır peşədir. O, bir tərəfdən yüksək vətəndaşlıq məsuliyyəti, cəsarət, şəxsi mətanət, ikinci tərəfdən bilik, dərrakə, elm, təhsil və təcrübə tələb edir. Cinayətkarlığın qarşısının alınması, dövlətin yaratdığı bütün imkanlardan respublika vətəndaşlarının bəhrələnməsi üçün dinc şəraitin təmin edilməsi, asayişin və qanunçuluğun möhkəmləndirilməsi naminə polis daim öz peşəkar səviyyəsini yüksəltməli, gündəlik işini müasir tələblərə, beynəlxalq təcrübəyə və normalara uyğun qurmalıdır”.***

Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi qarşıya qoyulan vəzifələrin icrasında bundan sonra da səylə çalışacaq, xalqa, Vətənə sədaqətlə xidmət edəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin mətbuat xidməti***

## Akademik Cəlal Əliyevin 90 illik yubileyi qeyd olunub

***AMEA Naxçıvan Bölməsində görkəmli alim, Əməkdar elm xadimi, akademik, tanınmış ictimai xadim Cəlal Əliyevin 90 illik yubileyi ilə əlaqədar elmi konfrans keçirilib.***

Naxçıvan Dövlət Universiteti ilə birgə keçirilən tədbirdə bölmənin sədri, akademik İsmayıl Hacıyev dünya şöhrətli seleksiyaçı alimin həyat yolundan və elmi fəaliyyətindən ətraflı danışıb.



Qeyd olunub ki, 500-dən çox elmi məqalənin, 20-dən artıq kitab və monoqrafiyanın müəllifi olan Cəlal Əliyev elm xadimi kimi nəinki ölkəmizdə, eləcə də ölkə hüdudlarından kənarda tanınır. O, müxtəlif illərdə Azərbaycan Respublikası və Almaniya Respublikası parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan Milli Elmlər və Rusiya Kənd Təsərrüfatı Elmləri akademiyalarının həqiqi üzvü, Ukrayna Aqrar Elmlər və Belarus Kənd Təsərrüfatı Elmləri akademiyalarının xarici üzvü seçilib.

İsmayıl Hacıyev akademik Cəlal Əliyevin əməyinin dövlətimiz tərəfindən yüksək qiymətləndirilərək onun Azərbaycan Respublikası Prezidentinin “Fəxri diplomu”na layiq görüldüyünü, Azərbaycanın Ali Dövlət Mükafatları – “Şərəf” və “İstiqlal” ordenləri ilə təltif olunduğunu xatırladıb.

Vurğulanıb ki, tanınmış akademik perspektivli və istedadlı gəncləri ətrafına toplayaraq böyük elmi məktəb yaradıb. Görkəmli alimin, müəllimin köməkliyi ilə 300-ə yaxın gənc dissertasiya müdafiə edərək alim adı alıb.

Akademik İsmayıl Hacıyev Prezident İlham Əliyevin 2018-ci il 22 may tarixli Sərəncamına əsasən keçirilən yubiley tədbirlərinin akademik Cəlal Əliyevin elmi fəaliyyətinə verilən qiymət olduğunu bildirərək qeyd edib ki, elmə dəyərli töhfələr vermiş görkəmli alim daim minnətdarlıqla xatırlanacaq.

Konfransda Bölmənin Bioresurslar İnstitutunun direktoru, akademik Tariyel Talıbov “Akademik Cəlal Əliyev və onun mənalı ömür yolu”, Naxçıvan Dövlət Universitetinin Botanika kafedrasının müdiri, dosent Daşqın Qəmbərov “Cəlal Əliyevin biologiya və aqrar elmlərin inkişafında rolu”, Bioresurslar İnstitutunun Dənli, taxıl, paxlalı və texniki bitkilər laboratoriyasının rəhbəri, dosent Pərviz Fətullayev “Dünya şöhrətli seleksiyaçı alim” və Naxçıvan Dövlət Universitetinin dosenti Hilal Qasımov “Biologiya elmində Cəlal Əliyev məktəbi” mövzularında məruzə ilə çıxış ediblər. Qeyd olunub ki, yüksək intellektual təfəkkürə malik olan alim öz geniş diapazonlu elmi fəaliyyəti və zəngin irsi ilə müasir Azərbaycan biologiya elminin inkişafına dəyərli töhfələr verib.

Tədbirdə görkəmli akademik Cəlal Əliyevin həyat yolunu əks etdirən videoslayd nümayiş olunub.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

***İyunun 28-də Ankara şəhərində Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Türkiyə Respublikasının Gömrük və Ticarət Nazirliyi arasında gömrük məsələləri üzrə Birgə Komitənin ikinci iclası keçirilib.***

## Azərbaycan və Türkiyə arasında gömrük məsələləri üzrə Birgə Komitənin ikinci iclası keçirilib

İclasdan əvvəl Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Türkiyənin gömrük və ticarət naziri Bülent Tüfekçi ilə görüşüb. Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Asəf Məmmədovun da iştirak etdiyi görüşdə iki ölkə arasında bütün sahələrdə, o cümlədən ticarət-iqtisadi və xüsusilə də gömrük işi sahəsində əməkdaşlıq əlaqələrinin dinamik inkişaf etdiyi və dünya ölkələrinə nümunə olduğu vurğulanıb.



Tərəflər qarşılıqlı maraqdoğuran məsələlər ətrafında fikir mübadiləsi aparıb, birgə əməkdaşlığın və ikitərəfli münasibətlərin daha da genişləndirilməsinin vacibliyini önə çəkiblər.

Gömrük məsələləri üzrə Birgə Komitənin iclasında çıxış edən Türkiyə Respublikası Gömrük və Ticarət Nazirliyinin müşaviri Cenap Aşçı ölkəsinin gömrük sistemində tətbiq olunan yeniliklər, həyata keçirilən layihələr, Türkiyə və Azərbaycan arasında qarşılıqlı əməkdaşlığın gücləndirilməsi sahəsində görülən işlər barədə məlumat verib.

İclasda ölkələr arasındakı bütün sahələrdə dostluq və qardaşlıq ənənələrinə söykənən strateji əməkdaşlıq münasibətlərinin inkişafında hər iki ölkənin gömrük orqanlarının rolu qeyd olunub, son illər regionda iki ölkənin təşəbbüsü ilə nəqliyyat və logistika sahələrində həyata keçirilən irimiqyaslı layihələrin qarşılıqlı əlaqələrin sürətli inkişafına töhfə verəcəyi vurğulanıb.

İclasda 2018-2019-cu illəri əhatə edən gömrük hüquqpozmaları ilə mübarizə sahəsində əməkdaşlığın və qarşılıqlı yardımın səmərəliliyinin yüksəldilməsi üzrə tədbirlər planı təsdiqlənib.

İki ölkənin gömrük laboratoriyaları arasında əməkdaşlığın inkişaf etdirilməsi və bu çərçivədə qarşılıqlı səfərlərin təşkil edilməsi, risklərin təhlili sahəsində həyata keçirilən uğurlu fəaliyyətlərin davam etdirilməsi barədə razılığa gələn tərəflər kinoloji xidmət üzrə əməkdaşlığın davam etdirilməsinin və birgə tədbirlərin keçirilməsinin zəruriliyini vurğulayıblar.

Birgə Komitənin iclasında Sədərək-Dilucu gömrük sərhəd-buraxılış məntəqəsindən daha səmərəli istifadənin təmin olunması məsələləri xüsusilə diqqətdə saxlanılıb. Bu məqsədlə lazımi təşəbbüslərin həyata keçirilməsinin zəruriliyi barədə razılığa gələn tərəflər sərhəd keçidinin sürətləndirilməsini qərara alıblar. Eyni zamanda Sədərək-Dilucu Gömrük idarələrinin rəhbərləri arasında keçirilən aylıq iclas və hesabatlardan məmnunluq ifadə edilib və bunun davam etdirilməsi qərarlaşdırılıb.

İclasda Türkiyə Respublikasından tranzit keçməklə Azərbaycan Respublikası ilə onun Naxçıvan Muxtar Respublikası arasında və əks-istiqamətdə yüklərin, xüsusilə də canlı heyvanların daşınması məsələsi də müzakirə edilib. Məsələnin qısa zamanda müsbət həlli üçün iki ölkənin qida təhlükəsizliyi sahəsində aidiyyəti qurumlarının da iştirakı ilə görüş keçirilməsi razılaşdırılıb.

İki ölkənin gömrük xidmətləri avtomobil nəqliyyatı ilə tranzit daşımalar üzrə ilkin elektron məlumat mübadiləsi sisteminin yaradılması istiqamətində görülmüş işləri müzakirə edərək müvafiq texniki şərtlərə dair danışıqların tezliklə başa çatdırılmasını və tətbiqini qərarlaşdırıblar. Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi çərçivəsində məlumatların elektron şəkildə mübadilə edilməsini də qərara alan tərəflər gömrük məlumatlarının mübadiləsinin gələcəkdə hava yolu ilə daşınan mallara da tətbiq edilməsi üzrə danışıqların başlanmasına razılıq veriblər.

Birgə Komitənin növbəti iclasının gələn il Bakı şəhərində keçirilməsi qərara alınıb.

**Rahil TAHİRLİ**
***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş inspektoru***




# Dövlət gənclər siyasəti muxtar respublikamızda uğurla həyata keçirilir

Ölkəmizdə dövlət gənclər siyasətinin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Ulu öndər sağlamdüşüncəli yeni nəslin yetişdirilməsini mühüm vəzifə kimi daim diqqət mərkəzində saxlamış, gənclərin dövlət və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsini vacib məsələ elan etmişdir. Ümummilli liderimiz bu sahədə hüquqi bazanın yaradılması və gənclərlə işin daha da təkmilləşdirilməsini diqqət mərkəzində saxlamış, onların potensialından düzgün istifadə olunması üçün məqsədyönlü tədbirlərin həyata keçirilməsini təmin etmişdir.

Gənclər siyasəti bu gün dövlət başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Artıq icrası başa çatmış "Azərbaycan Gəncliyinin Dövlət Proqramı (2005-2009-cu illər)", "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı", "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı" (2006-2010-cu illər)" və "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı" ölkə gənclərinin fəal həyat mövqeyinin düzgün formalaşmasında mühüm əhəmiyyət kəsb etmişdir. 2007-ci ilin ölkəmizdə "Gənclər ili" elan olunması, Azərbaycan gənclərinin forumlarının keçirilməsi bu sahədə görülən işlərin əhatə dairəsini daha da genişləndirmişdir.

Bütün bunların nəticəsidir ki, bu gün ölkəmizdə bilikli, elmli, savadlı və yüksək düşüncəyə malik gənc nəsil yetişir. Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi dövlət gənclər siyasəti təkcə paytaxt Bakı şəhərini deyil, bütünlükdə ölkəmizi əhatə edib.

Naxçıvan Muxtar Respublikasında da dövlət gənclər siyasəti bu gün uğurla həyata keçirilir. Son illər gənclərin muxtar respublikanın ictimai-siyasi, iqtisadi-mədəni həyatında fəal iştirakı, sosial problemlərinin həll edilməsi, gənclər siyasətinin bütün istiqamətləri üzrə müvafiq dövlət proqramlarının səmərəli həyata keçirilməsi, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə gənclərin irəli çəkilməsi və xidmətlərinin qiymətləndirilməsi bu istiqamətdə atılan mühüm addımlardandır.

Muxtar respublikamızda gənclərin mütaliə mədəniyyətinin artırılması da diqqət mərkəzində saxlanılmışdır. Naxçıvan Muxtar Respublika Kitabxanasının, AMEA-nın Naxçıvan Bölməsinin, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin, Naxçıvan Dövlət Universitetinin və Gənclər Mərkəzinin elektron kitabxanalarının maddi-texniki bazasının və kitab fondunun gücləndirilməsi, eləcə də "Oxunması zəruri olan kitablar haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı gənclərin mədəni inkişafı, dünyagörüşlərinin zənginləşdirilməsi sahəsində atılan mühüm və vacib addımlardır.

Eləcə də Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"nın təsis edilməsi, Gənclər Fondunun yaradılması və "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncam gənclərin bütün sahələrdə inkişafına hesablanmış məqsədyönlü siyasətin tərkib hissəsidir. Naxçıvan şəhərində Gənclər Mərkəzinin istifadəyə verilməsi isə gənclərin xüsusi layihələr vasitəsilə vahid bir məkanda toplanması, onların asudə vaxtlarının səmərəli təşkili baxımından xüsusi əhəmiyyətə malikdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov gənclərin fəaliyyətilə bağlı çıxışında demişdir: ***"Müasir dövrdə informasiya texnologiyalarının tətbiqi işinin və informasiya mübadiləsinin çevik forması olan sosial şəbəkələrin getdikcə genişlənməsi gənclər qarşısında əlavə fəaliyyət sahəsi açmışdır. Bizim üçün xoşdur ki, muxtar respublika gəncləri bu sahəyə nüfuz etməyi bacarmış, sosial şəbəkələrdə fəallığı xeyli artırmışlar. Gənclərimiz sosial şəbəkələrdən əsasən təbliğat vasitəsi kimi istifadəyə üstünlük verir, öz təcrübə və biliyini səmərəli informasiya mübadiləsinə yönəldir, internet resurslarında ölkəmiz, eləcə də muxtar respublikamız haqqında obyektiv və zəngin məlumat bazası yaratmağa çalışırlar".***

Gənclərin sosiallaşması, eləcə də internet resurslarından düzgün şəkildə istifadəsi ən aktual məsələlərdən biridir. Son dövrlər gənclərin sosial şəbəkələrdə fəallıqları daha da artıb. Hazırda "Naxçıvan həqiqətləri", "Naxçıvan gəncləri" sosial qruplarında gənclərimizin aktivliyi artmaqdadır. Belə ki, muxtar respublikamızın görməli yerlərinin, tarixi abidələrinin tanıdılması baxımından sosial şəbəkələrdə edilən paylaşımlar Naxçıvanın bugünkü inkişafından, müasirliyindən və gənclərin fəallığından xəbər verir.

Hər il ölkəmizin bir rayon və şəhəri Gənclər Paytaxtı elan edilir. 2018-ci ildə Naxçıvan şəhərinin namizədliyi irəli sürülmüş, internet üzərindən aparılan səsvermədə muxtar respublika gənclərinin fəallığı şəhərimizin Gənclər Paytaxtı seçilməsi ilə nəticələnmişdir. Naxçıvan şəhərinin bu ada layiq görülməsi gənclərimizin internetdən, sosial şəbəkələrdən düzgün istifadəsinin bariz nümunəsidir.

*Naxçıvan şəhərinin ölkəmizin Gənclər Paytaxtı seçilməsi bir daha sübut etdi ki, muxtar respublikamızda dövlət gənclər siyasəti uğurla aparılır və gənclərin fəaliyyəti üçün hərtərəfli şərait yaradılıb. Onlar bu şəraitdən səmərəli istifadə edərək ulu öndər Heydər Əliyev yoluna sədaqət və ehtiramlarını öz fəaliyyətləri ilə sübut edirlər. Ali Məclis Sədrinin dediyi kimi:* ***"Gənclik gələcəkdir. Sağlam gənclik isə həm də sağlam gələcək deməkdir. Azərbaycanda həyata keçirilən dövlət gənclər siyasəti hər bir gəncə özünü təsdiq etməsi, yüksək bilik qazanması və dəyərli vətəndaşa çevrilməsi üçün geniş imkanlar açır. Azərbaycan inkişaf edən dövlətdir və təbii ki, müstəqillik dövründə yetişən, onun bəhrəsini görən hər bir gənc də öz fəaliyyəti ilə bu inkişafa dəstək verməli, dövlət müstəqilliyimizin qədrini bilməlidir. Biz bu gün yetişən gəncliyə böyük ümidlə baxırıq. İnanırıq ki, muxtar respublika gəncləri bundan sonra da öz fəaliyyətlərini ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi yola sədaqət ruhunda quracaqlar. Bu yol – gəncliyin özünü təsdiq və özünü doğrultmaq yoludur".***

**Azad CABBAROV**
***Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri,***
***Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı***
***Heydər Əliyev adına Gənclər Birliyinin sədri***

# III Beynəlxalq Gənclik Araşdırmaları Konqresi bölmə iclasları ilə öz işini davam etdirir



Xəbər verdiyimiz kimi, iyunun 28-də Naxçıvan şəhərində III Beynəlxalq Gənclik Araşdırmaları Konqresi öz işinə başlayıb. Gəncliyin inkişafına töhfə vermək məqsədilə təşkil olunan konqres həmin gün açılış mərasimindən sonra bölmə iclasları ilə davam edib. Türkiyə Respublikasının Çankaya Universitetindən professor Zeynəb Karahan Uslu, Mersin Universitetindən professor Gülay Börəkçi və "Naxçıvan" Universitetindən Hüseyn Bağırsoylunun sədrliyi ilə keçirilən bölmə iclaslarında müasir gəncliyin təhsil, sağlamlıq və turizm sahələrində fəaliyyəti ilə bağlı mövzulardan bəhs edən məruzələri dinlənilib.

Dünən isə Türkiyə Respublikasının Ərdahan Universitetinin dosenti Semra Çevik və Erciyes Universitetinin dosenti Mustafa Durmuşçələbinin sədrliyi ilə təhsil, Pamukkale Universitetinin dosenti Türkan Turanın və Azərbaycan İqtisad Universitetinin professoru Rəna Sultanovanın sədrliyi ilə sağlamlıq, Azərbaycan Turizm və Menecment Universitetinin dosenti Flora Ələsgərovanın və İstanbul Universitetinin professoru Haluk Tanrıverdinin sədrliyi ilə turizm mövzularına dair məruzələr dinlənilib.

Qeyd edək ki, üç gün davam edəcək III Beynəlxalq Gənclik Araşdırmaları Konqresində müasir gəncliyin dil, din, media, incəsənət, siyasət, turizm, təhsil və digər sahələrdə fəaliyyəti ilə bağlı mövzularda yerli və xarici ölkələrin ali təhsil müəssisələrindən gəlmiş elm adamlarının çıxışları dinləniləcək.

**Səbuhi HƏSƏNOV**

# Qədim diyar beynəlxalq səviyyəli tədbirlərin keçirilməsi üçün ideal məkandır

## *III Beynəlxalq Gənclik Araşdırmalar Konqresinin Türkiyədən olan iştirakçıları bu fikirdədirlər*

Naxçıvan şəhərində keçirilən III Beynəlxalq Gənclik Araşdırmalar Konqresində qardaş Türkiyənin bir sıra nüfuzlu ali təhsil ocaqlarının nümayəndələri də iştirak edirlər. Onlar qədim diyarın bir çox gəzməli-görməli yerləri, tarixi abidələri, mədəniyyət və səhiyyə müəssisələri ilə də tanış olublar. Qonaqlarla görüşüb həmsöhbət olduq, bir neçəsinin Naxçıvanla bağlı təəssüratlarını öyrəndik.

***Zəkəriya Bingöl – Marmaris Turizm Məslək Yüksəkokulunun müdiri:*** – III Beynəlxalq Gənclik Araşdırmalar Konqresinin Naxçıvanda keçirilməsi qədim diyarın tanıdılması baxımından mühüm əhəmiyyətə malikdir. Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı və eyni zamanda Azərbaycan Respublikasının Gənclər Paytaxtı seçilməsi tədbirin burada keçirilməsinə səbəb olan əsas amillərdir.



Vurğulamaq istərdim ki, konqresin yüksək səviyyədə keçirilməsi üçün Naxçıvanda hər cür şərait yaradılıb. Onu da qeyd edim ki, muxtar respublikanın bir çox gəzməli-görməli yerlərində olduq. Naxçıvanın qədim tarixi və mədəni abidələri, ecazkar təbiəti, buradakı səliqə-sahman bizdə xoş təəssüratlar yaratdı.

Mən bir neçə dəfə Naxçıvanda olmuşam. Burada keçirilən festival və tədbirlərdə iştirak etmişəm. Deyə bilərəm ki, qədim diyar beynəlxalq səviyyəli tədbirlərin keçirilməsi üçün ideal məkandır. Ümidvaram ki, III Beynəlxalq Gənclik Araşdırmalar Konqresi kimi yüksək səviyyəli tədbirlər gələcəkdə daha tez-tez keçiriləcək və iki qardaş ölkənin sıx əməkdaşlığı bundan sonra da davam etdiriləcəkdir.

***Professor Nevres Hürriyyet Aydoğan – Muğla Sıtkı Koçman Universitetinin rektor yardımçısı, Tibb fakültəsinin dekanı:*** – Bu tədbirin Naxçıvanda keçirilməsində məqsəd buradakı ali təhsil ocaqları ilə qarşılıqlı əlaqələrin daha da genişləndirilməsi, təhsil sahəsində məlumat mübadiləsi aparmaqdan ibarətdir. Buradakı ali təhsil ocaqlarında olduğumuz müddətdə gördük ki, Naxçıvanda təhsilə böyük diqqət yetirilir.



Bu, mənim Naxçıvana ilk gəlişimdir. Ancaq Nuhun yurduna ayaq basdığım andan özümü doğma torpağımda olduğum kimi hiss etdim. Bunun əsas səbəbi buradakı insanların göstərdiyi qonaqpərvərlik və mehriban münasibətdir. Tədbirin təşkilində zəhmət çəkən hər kəsə minnətdarlığımı bildirirəm.

Onu da deyim ki, Naxçıvanın zəngin turizm potensialına malik olduğunu əyani şəkildə gördüm. Duzdağ Fizioterapiya Mərkəzi öz möcüzəli xüsusiyyətləri ilə bizi valeh etdi. Naxçıvanın tarixi və mədəni abidələrlə zəngin olması qədim diyarda turizmin inkişafı üçün geniş imkanlar açır.

***Zülfikar Bayraktar – Bandırma Onyedi Eylül Universitetinin dosenti:*** – Türk dünyasının böyük oğlu Heydər Əliyevin çox gözəl bir kəlamı var: ***"Gənclər bizim gələcəyimizdir".*** Bəli, əgər gələcəyimizin sağlam təməllər üzərində qurulmasını istəyiriksə, indidən onların yüksək təhsil almaları, yaxşı mütəxəssis kimi yetişmələri üçün lazım olan işləri görməliyik. Naxçıvanda olduğum zaman gördüm ki, burada gəncliyin inkişafı üçün hər cür şərait yaradılıb. Ali təhsil ocaqlarında yaradılan tədris şəraiti olduqca ürəkaçandır. Türkiyəyə qayıdandan sonra yaxın dost-tanışa da təhsil almaları üçün Naxçıvandakı universitetləri seçmələrini tövsiyə edəcəyəm.



Onu da deyim ki, gəzdiyim digər ölkələrdə çox acınacaqlı hallarla qarşılaşmışam. Ancaq Naxçıvana ayaq basan andan burada sabitliyin, əmin-amanlığın hökm sürdüyünü, hər tərəfin, sözün həqiqi mənasında, gülüstana çevrildiyinin şahidi oldum. Yüksək qonaqpərvərlik, mehriban münasibət, təmizlik, səliqə-sahman, bir sözlə, görünən hər şey gözəldir. Burada olmaqdan çox məmnun qaldım, bizə göstərilən diqqətə görə minnətdaram.

***Gülşən Bayat – İqdır Universitetinin Turizm fakültəsinin müəllimi:*** – Əvvəlki iki konqres Türkiyədə – Marmaris və Fethiyede keçirilib. Üçüncü tədbirin Naxçıvanda keçirilməsi isə iki qardaş ölkənin qarşılıqlı əməkdaşlığının, bir-biri ilə qırılmaz tellərlə bağlılığın göstəricisidir. Qədim diyarın gəzməli-görməli yerlərini seyr etmək imkanımız da oldu. Bərpa edilmiş tarixi-mədəni abidələr, qədim yurdun ecazkar təbiəti, Naxçıvanın yüksəksəviyyəli mədəniyyət, səhiyyə və təhsil ocaqları muxtar respublikanın inkişafının göstəricisidir. Ən çox diqqətimi çəkən ünvanlardan biri Duzdağ Fizioterapiya Mərkəzi oldu. Etiraf edim ki, belə bir məkanı heç yerdə görməmişəm. Öyrəndim ki, buraya dünyanın bir çox yerlərindən bronxial-astma xəstələri gələrək müalicə alırlar. Ölkəmdə bir çox insan da bu xəstəlikdən əziyyət çəkdiyi üçün bura ilə tanışlığıma çox sevindim. Qayıdan kimi onlara ilk sözüm bu şəfa ocağı barədə olacaq.





Onu da bildirim ki, Naxçıvanı bu cür cənnətməkan diyar təsəvvür etmirdim. Naxçıvan şəhərinin hüsnünə tamaşa etdikcə məndə olduqca xoş duyğular yarandı. Abad küçələr, geniş yollar, əzəmətlə ucalan yaraşıqlı binalar, ecazkar yaşıllıqlar, sakitlik, təmizlik bu yeri möhtəşəm göstərən əsas amillərdir. Naxçıvanı gördüyüm üçün çox sevindim. Gələcəkdə də tez-tez yolumu buradan salmağı düşünürəm. Bizə göstərilən yüksək qonaqpərvərliyə və mehriban münasibətə görə hər kəsə minnətdaram.

**Nail ƏSGƏROV**
**Tural AĞAYEV**

***Fəsillərin ən gözəli olan yazın yaşıl cazibəsi həmişə insanı doğma yuvasına, onun ilıq havasında yaşamağa çağırır. Axarlı-baxarlı gözəl bir gündə çağlayan bulaqların həzin zümzüməsinə dalaraq yarpaqların sanki nəğmə oxuyan ahənginə qulaq verən insan nə qədər yorğun olsa da, bircə gündə az qala iyirmi il əvvəlki gəncliyinə qayıdır. Dağı, daşı, çayı, gölü, şəlaləsi, buz bulaqları, yamyaşıl yamacları, işgüzar və qonaqpərvər insanları ilə Şahbuz rayonunun Kükü kəndi də özünün gözəl növrağına qovuşub.***



*Yurd sevgisi*

# Şahbuzun cənnət guşəsi
# KÜKÜ

Kükü kəndi Şahbuzun ən böyük kəndlərindən biri, qədim yurd yerlərimizdəndir. Kənd dəniz səviyyəsindən, təxminən, 1900-2100 metr yüksəklikdə, Dərələyəz silsiləsinin cənub yamacında, Naxçıvançayın ən böyük qollarından biri olan Küküçay boyunca yerləşir. Naxçıvan şəhərindən, təqribən, 50 kilometrlik məsafədə olan kəndə 45 dəqiqə ərzində rahat gəlib çatmaq mümkündür. Şəhərdən kənd mərkəzinədək yolların tamamən yeni standartlar səviyyəsində olması bu qədər yolun çox rahat qət edilməsi deməkdir. Yolla bərabər, bütün sosial infrastruktur sahələrinin şəhər standartları səviyyəsində təmini digər kəndlərimizdəki kimi, burada da sosial həyatı asanlaşdıran, insanların həyat səviyyəsini yüksəldən amillərdəndir. Kəndin və kəndətrafı yerlərin əsrarəngiz təbiəti, buradakı təbii sərvətlər və gözəlliklər, havanın və suyun ideal səviyyədə təmizliyi, yetişdirilən kənd təsərrüfatı məhsullarının özünəməxsus dad-tamı da Kükünün cazibədarlığını artıran bənzərsizliklərdəndir.

Minbir rəngin qovuşduğu təbiət gözəlliyini doyunca dadmaq üçün Küküyə gələnləri burada çoxlu sürprizlər gözləyir. Əvvəllər də Küküdə olanlar yaxşı bilirlər ki, bu kəndin yazı ilə yayının digər bölgələrimizdən düz bir ay fərqi var. Başqa sözlə, indi Naxçıvanın Arazboyu kəndlərində barı yeyilən meyvələr Küküdə təzəcə yetişməkdədir. Ancaq, şübhəsiz, kənd həyatı burada təkcə təbiət gözəlliklərini deyil, həm də təsərrüfat və sosial-mədəni həyatın da özünəməxsus rəng çalarlarını özündə birləşdirir. Kükü yüksək dağlıq ərazidə yerləşdiyindən burada insanların əsas məşğuliyyəti heyvandarlıq, arıçılıq və bağçılıqdır. Bu isə 7 yaşdan 70 yaşadək kənddə yaşayan hər kəsin təbiətlə qucaq-qucağa, həmahəng olması deməkdir. Başqa sözlə, şəhərdəkindən fərqli olaraq burada iş günü doqquzun yarısında deyil, səhər saat beşdə, dan yeri ağarmamış başlayıb, günbatımınadək davam edir. Yayın bu dövrü ilin ən uzun günləri olsa da, kəndli üçün günboyu boş yerə itirəcək beş dəqiqə belə, yoxdur. Yəni şəhər yerində tut ağacının altında əyləşib saatlarla nərd oynayaraq asudə vaxt keçirən yaşlıların əksinə olaraq, Küküdə yaşayan təqaüdçüyə Bakıda oxuyan nəvəsinin son imtahanını verib tətilə qayıtdığı gün kəsmək üçün bəslədiyi 5 aylıq quzuya qulluq etmək ən yaxşı zövq, gözəl istirahətdir. Yenicə bara minmiş alma bağında şaqqıltı ilə qırxbuğum otlayan belə şıltaq quzuların seyrindən kim doyar ki?!

Kükü camaatı çox təsərrüfatcıldır. Ərazidə mövcud olan torpaq, su, iqlim və biomüxtəliflik resursları tarixən burada məskunlaşmış insanların məşğuliyyət növlərinin formalaşmasına da öz təsirini göstərib. Digər yerlərdən fərqli olaraq Küküdə otlaqlar üçün mövcud ərazilər əkinəyararlı yerlərdən daha çoxdur. Ancaq torpağın mineral tərkibi burada təkcə alyanaqlı Kükü almasının deyil, eləcə də digər meyvə və tərəvəzlərin də xüsusi delikates dadına təsir edir. Xüsusən qışın bol qarlı və mülayim, yazın və yayın ilk aylarının sərin və yağışlı keçməsi Kükü kəndi və ətraf ərazilərdə əlverişli iqlimi formalaşdıran əsas amillərdəndir. Yayın orta ayından başlayaraq, demək olar ki, hər gün Qanlıgöldən əsən sərin dağ küləkləri də buranın havasının saflığına çox təsir edir. Təmiz hava və su isə yabanı dağ pencərlərindən tutmuş nəfis Kükü balınadək hər bir orqanik nemətin yüksək keyfiyyətində, onların ləzizliyində mühüm şərtdir ki, bu da bilavasitə insanların sağlamlığı deməkdir.



Su həyatdır. Tutumu bir milyon kubmetr olan Qanlıgöl və çoxsaylı şirin sulu bulaqlar bütün Şahbuzun, xüsusən Kükünün əsl sərvətidir. Bəzən yaşı doxsanı haqlamış, amma hələ də otuz yaşlı gənclər kimi işdən yapışaraq bağ becərən, su suvaran ağsaqqalların dediyi kimi Kükünün bulaqları tarixən burada insanların məskunlaşmasının əsas səbəblərindən biri olub. Böyük ehtimal ki, qədimdə soyuducuların, yaxud su xətti çəkmək və ya suyu saxlamaq üçün texniki imkanların olmadığı bir vaxtda buz kimi sərin sulu bulaqlar bu bölgədə məskunlaşmış insanların normal yaşayışı, keyfiyyətli qidalanması üçün ən zəruri səbəblərdən biri olub. Belə bulaqlar isə Kükü kəndi və ərazisində yüzlərlədir. Kəndboyu bəzən iti, bəzən də səssiz-sakit axaraq Araza qovuşmağa tələsən Küküçayı ilboyu, demək olar ki, tam sabit şəkildə dəqiqədə 1500 litrdən artıq debitlə qidalandıran Gurbulaq isə buradakı canlı həyata can verən əsl təbiət möcüzəsidir. Yenə də yaşlıların dediyinə görə, Gurbulaq kimi gursulu digər bir bulaq da simmetrik şəkildə Dərələyəz dağının o biri üzündə, yəni tarixi Qərbi Azərbaycan torpağında çağlayır. Beləcə, Gurbulağın suyu heç tükənmədən min, bəlkə də, minilliklər boyu əcdadlarımızın su yaddaşına hoparaq Küküçay dərəsi vadisində yaşayan insanların həyatına, məişətinə və mədəniyyətinə öz təsirini göstərib. Bu, elə indi də belədir: harada yaşamağından asılı olmayaraq, kükülü hər bir kəs Gurbulağı öz ailə şəcərəsi kimi tanıyır, onunla fəxr edir. Eləcə də Kükü dağındakı kəmər qaşları kimi düzülmüş Qırxbulaq, gözündən süd kimi qaynayan Südlü bulaq, iri qayalar arasında haradan çıxdığı hələ də bilinməyən Pünhanbulaq, kükülü gənclərin və qonaqların sevimli istirahət məkanı olan Söyüdlü bulaq, kəndin az qala yarısını içməli su ilə təmin edən Qulubulağı kimi gursulu bulaqlar kəndin tanınan səfalı yerlərindəndir. Kəndi iki yerə ayıran Küküçay və dərə yataqlarının təmizliyi üçün yerli əhalinin və kənd bələdiyyəsinin can yandırması da suyun ayna kimi şəffaflığını qoruyur. Burada da hamı bilir ki, su elimizin sərvətidir.



Kükü turizm məkanıdır. Kənddə ekoturizm, yəni təbiətyönümlü turizmin bir çox yarımnövləri üzrə böyük potensialı olan resurslar vardır. Dib yurddan Qabaqlıya, Paraqdaşdan Qanlıgölə, Keçəldağdan Hörgülüyədək zirvələrlə hilal kimi dövrələnmiş Kükü kəndi Dərələyəz silsiləsinin bütün bu yüksəkliklərindən olduqca gözəl panoramik görünüşə malikdir. Bunlar isə xüsusən ilin belə bir yaşıllıq dolu gözəl günlərində Kükü ilə bağlı bütün sosial şəbəkə paylaşımlarının əsas fotosudur. Kükülülər, xüsusən gənclər bu sahədə xeyli fəaldırlar. Axı kəndimizə aid gözəllikləri biz paylaşmasaq, bunu başqası necə etsin, deyə kəndli gənclərlə bu barədə həmfikirik. Çətin ki dünyanın başqa bir yerində buradakı kimi sərt sıldırım qayaları, yamyaşıl çəmənləri, yabanı halda bitən yüzə yaxın dərman bitkisini, qorunaraq sayı artırılan gözəl fauna növlərini, Salvartının, Haçadağın ta zirvəsinədək aydın görünən landşaft mənzərələrini eyni anda görə biləsən. Bu yaşayış yerinin ecazkar təbiəti ilə yanaşı, müasir inkişafı, burada aparılmış abadlıq tədbirləri də bu paylaşımların əsas motivini təşkil edir. Kükünün ümumi inkişafı, məskunlaşmanın sürətlənməsi əsas məşğuliyyət növü olan kənd təsərrüfatı ilə yanaşı, gələcəkdə turizmin, xüsusən kənd turizminin də mühüm gəlir mənbəyi olacağını indidən deyir. Yerli camaatla yanaşı, digər yerlərdən gələn insanlara da məxsus villatipli istirahət məkanlarının sayı çoxaldıqca Küküdə yay istirahətini keçirmək istəyənlərin də tələbi artacaq. Belə səfalı yerdə, sərin sulu, təmiz havalı kənddə bal-qaymaqdan, dərman bitkilərindən hazırlanan unikal reseptli yeməklərdən dadan qonaqların buradan getmək istəmədiklərinin dəfələrlə şahidi olmuşuq.

Kükülülər çox əməksevərdirlər. Həqiqətən, burada yaşayan insanlar üçün heç bir işin ağı-qarası yoxdur. İndi torpağın kəndliyə verildiyi bir dövrdə burada ruzisini torpağa bağlamış hər bir ailə təsərrüfatı üçün onlarla sayda iri və xırdabuynuzlu mal-qara, yaxud 40-50 arı ailəsi sahibi olmaq, tonlarla meyvə yetişdirmək heç də irihəcmli iş sayılmır. İş-gücü şəhərdə olsa da, xüsusən bu yay günlərində həftəsonunu ata yurdunda keçirib, təsərrüfat işlərinə kömək edib, səliqə-sahman, abadlıq işləri ilə məşğul olan kükülü ziyalılar da onların yolunu həmişə gözləyən doğma torpağın sevgisini doyunca yaşayırlar. İndi Küküdə hamı həyatının ən gözəl günlərini yaşadığına inanır. Bu isə yaxın və uzaq tarixboyu bu kənddən, onun sərvətlərindən möhkəm yapışıb ürəyi yurd sevgisi ilə döyünən insanlara Uca Allahın bəxş etdiyi ən böyük xoşbəxtlikdir…

Beləcə, böyük şair Məmməd Arazın vəsfindən doymadığı Şahbuz bütün təbii gözəllikləri ilə kəndimizin timsalında yenidən kiçik bir yazının və bir bənd şeirin də mövzusu oldu:

*Ağbulağın çəmənləri xal-xalı,*
*Batabatın dolayları yaz yalı.*
*Qanlıgölün bulaqları buz balı,*
*Qucağında loğmanıdı Şahbuzun.*

✍ **Əli CABBAROV**

## Şair-publisist Vaqif Məmmədovun əsərlərinin müzakirəsi keçirilib

Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında tarix üzrə fəlsəfə doktoru, şair-publisist Vaqif Məmmədovun əsərlərinin müzakirəsi keçirilib. Anadan olmasının 70 illiyi münasibətilə təşkil olunan tədbiri giriş sözü ilə kitabxananın direktoru, tarix üzrə fəlsəfə doktoru Aytəkin Qəhrəmanova açıb. "Naxçıvan" Universitetinin müəllimi, dosent Aypara Behbudova "Vaqif Məmmədov yaradıcılığında sənətkarlıq xüsusiyyətləri", Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanası Kütləvi iş şöbəsinin müdiri Yeganə Rüstəmova "Ölməz sənətkar" mövzularında çıxış ediblər.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Asim Yadigar, Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Hüseyn Həşimli, Naxçıvan Dövlət Universitetinin müəllimi, filologiya üzrə fəlsəfə doktoru, dosent Xanəli Kərimli, şair, filologiya üzrə fəlsəfə doktoru Elxan Yurdoğlu və digərləri şair-publisistin yaradıcılığı haqqında fikirlərini bölüşüblər.

Qeyd olunub ki, Vaqif Məmmədov torpağa, Vətənə, xalqa bağlı olan poetik ruhlu, milli düşüncəli şairdir. Vətən anlayışı şairin yaradıcılığında özünəməxsus bir şəkildə öz əksini tapıb. "Ürəyimə təkcə Vətən yerləşir", "Vətənsizi qızıla bük, dərd olur", "Yavan çörək belə baldı Vətəndə", hətta həyatının son günlərində qələmə aldığı "Nə Vətən məndən doydu, nə mən Vətəndən" kimi şeirlərində Vətənə, torpağa məhəbbət daha dolğun şəkildə verilib. O, şeirlərində, sadəcə, Vətən torpağını tərənnüm etmir, həm də bu torpağın qədrini bilməyə, onu qorumağa, ona dikilən yad gözlərə qarşı amansız olmağa çağırır. Şair torpaq dərdini, Vətənin bölünməsini böyük faciə hesab edirdi. Ana torpağında döyüşlərin getməsinə dözə bilmirdi, bu ağrı-acılarını, ürəyinin yanğısını şeirə çevirirdi.

Çıxışlardan sonra şairin oğlu Səbuhi Məmmədov tədbir iştirakçılarına öz minnətdarlığını bildirib, sərgiyə baxış olub, şairin həyatı haqqında film nümayiş etdirilib.

✍ **Ramiyyə ƏKBƏROVA**

***İtmişdir***

Naxçıvan şəhəri, M.S.Ordubadi küçəsi, döngə 1, ev 1-də yaşayan Nağıyev Yadigar Əli oğlunun adına verilmiş 3438 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan:** ***AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.***

***Telefonlar: Məsul katib: 545-62-47***
***Şöbələr: 545-81-44, 545-51-18***
***Müxbirlər: 545-75-21, Faks: 544-52-52***
**E-mail:** *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

***Nömrəyə məsul:*** **Muxtar Məmmədov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1490. Sifariş № 470**